## AQTA ilə əməkdaşlıq fəaliyyətləri

- **14-15 may 2025** – FAO-nun dəstəyi ilə ölkədə akvakultura və balıqçılıq sektorunun inkişafına texniki dəstək məqsədilə beynəlxalq ekspertlərlə görüş keçirilib.
- **25 fevral – 25 mart 2025** – FAO-nun dəstəyi ilə AQTA-nın əməkdaşları üçün Dəyər zənciri boyunca ərzaq itkisi və tullantıları ilə mübarizə üzrə virtual təlim kursu keçirilib.
- **27 fevral 2025** – "Daha yaxşı qidalanma və daha təhlükəsiz qida üçün qida istehlakı məlumatları bazası" pilot layihəsinin açılışı və ilk seminarı keçirilib; məqsəd geniş əhali qruplarını əhatə edən məlumat bazası yaradaraq qida və aqrar siyasət qərarlarını elmi sübuta əsaslandırmaqdır.
- **5 sentyabr 2024** – FAO-Türkiyə Tərəfdaşlıq Proqramı (FTPP II) çərçivəsində Türkiyədən bitki sağlamlığı üzrə mütəxəssislər və FAO Azərbaycan nümayəndəliyinin təmsilçiləri AQTA-da olublar; bitki mühafizəsi vasitələrinin dövriyyəsi, zərərli orqanizmlərin risk qiymətləndirilməsi və fövqəladə hallarda cavab prosedurları müzakirə edilib.
- **16 aprel - 14 may 2024** – FAO-nun dəstəyi ilə AQTA-nın əməkdaşları və özəl baytar həkimlər üçün Avropa və Mərkəzi Asiya Regional Ofisinin Virtual Tədris Mərkəzi vasitəsilə "Ruminantların biotəhlükəsizliyinin təkmilləşdirilməsi" üzrə virtual tədris kursu keçirilib.
- **14 mart 2024** – AQTA-nın sədri Qoşqar Təhməzli ÜST və FAO nümayəndələri ilə görüşüb; Milli Kodeks Sisteminin yaradılmasına dəstək, COP29 hazırlıqları, "Vahid Sağlamlıq" yanaşması və sağlam qidalanma üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilib.
- **18 sentyabr 2023** – FAO-nun dəstəyi ilə Bakıda "Pestisidlərin həyat dövriyyəsinin idarə edilməsi" mövzusunda regional seminar keçirilib.
- **14 sentyabr 2023** – "Avropa və Mərkəzi Asiyada Qida standartlarının təkmilləşdirilməsi və Kodeksin fəaliyyətində iştirakın genişləndirilməsi" mövzusunda beynəlxalq tədbir keçirilib; 15-ə yaxın ölkə, FAO, ÜST, ÜTT, UNICEF, Avropa Komissiyası, Dünya Bankı və s. qurumların nümayəndələri qatılıb.
- **11 sentyabr 2023** – AQTA sədri Qoşqar Təhməzli FAO-nun ölkəmizdəki yeni nümayəndəsi Muhammad Nasar Hayatı qəbul edib; qida təhlükəsizliyi haqqında yeni qanunun tətbiqi, birgə layihələr və heyvan xəstəliklərinə qarşı tədbirlər müzakirə olunub.
- **3 avqust 2022** – AQTA-da FAO ekspertləri Susanne Munstermann və Kamila Benfield ilə xırdabuynuzlu heyvanların taunu (PPR) üzrə ÜHST-yə təqdim ediləcək sənədlərin hazırlanması mövzusunda görüş keçirilib.
- **2 iyun 2022** – FAO-nun dəstəyi ilə "Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti" mövzusunda seminar keçirilib.
- **7 may 2022** – FAO-nun baş direktoru Qu Donqyu AQTİ-də olub; laboratoriya imkanları və beynəlxalq standartlara uyğun sınaqlar yüksək qiymətləndirilib.

- **22 və 20 aprel 2022** – AQTA və FAO nümayəndələrinin ardıcıl görüşlərində birgə layihələrin icra vəziyyəti, milli qida nəzarət sisteminin qiymətləndirilməsi və Milli Kodeks sisteminin normativ bazasının təkmilləşdirilməsi müzakirə olunub.
- **18 fevral 2022** – Heyvan sağlamlığı sahəsində əməkdaşlığın genişləndirilməsi, xəstəliklərin molekulyar-genetik tədqiqi və mütəxəssis hazırlığı barədə FAO ilə fikir mübadiləsi aparılıb.
- **2 dekabr 2020** – AQTA sədr müavini Zəkiyyə Mustafayeva və FAO Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmakın iştirakı ilə görüş keçirilib, mövcud layihələr, heyvan xəstəlikləri üzrə gələcək təşəbbüslər və koordinasiya mexanizmləri müzakirə edilib.
- **17 iyul 2019** – AQTA və FAO Azərbaycanda heyvan xəstəliklərinə nəzarətin təkmilləşdirilməsi üçün milli potensialın gücləndirilməsinə yönəlik layihəyə başlayıb.
- **24 iyun 2019** – AQTA sədri Qoşqar Təhməzli FAO-nun Avropa & Mərkəzi Asiya üzrə regional direktor müavini Nabil Gangi ilə görüşüb; FAO-AQTA Tərəfdaşlıq Proqramı perspektivləri nəzərdən keçirilib.
- **21 yanvar 2019** – AQTA-da FAO-nun Avropa & Mərkəzi Asiya Regionu üzrə direktoru Vladimir Raxmanin və Mələk Çakmak ilə görüş keçirilib; 1995–2015-ci illərdə həyata keçirilmiş 23 FAO layihəsi xatırladılıb və əməkdaşlığın genişləndirilməsi əhəmiyyəti vurğulanıb.